AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# THE EXPERIENCE OF DREAMS IN ANCIENT CULTURES AND RELIGIONS

**Hasan Isayev**[1]
**Irada Taghiyeva**[2]

**UDC:** 133.5:2(091)
**LBC:** 86.3(0):88.7:87.3
**HoS:** 64
**DOI:** 10.33864/2790-0037.2025.v6.i2.94-102

**Keywords:**

Dream,
Dream vision,
Ancient Civilizations,
Dream interpretation,
Incubation,
Soul,
Death

## ABSTRACT

Throughout history, dreams have captivated people's attention, both frightening and making them reflect. Primitive humans viewed dreams not just as a nightly experience, but as a mystical state where the soul leaves the body and travels to other realms. Over time, these beliefs influenced the formation of religions and cultures, becoming closely associated with concepts of the soul, death, and life after death.

The goal of our research is to understand the significance of the "dream" phenomenon in human history, to learn how people have understood dreams over time, and to investigate how ancient cultures applied dreams in human life.

Our research analyzes the cultural, religious, and sociological functions of dreams in ancient cultures and religions. It compares how civilizations such as Mesopotamia, Egypt, India, Greece, and Rome interpreted dreams and used them for prophecy, healing, and divine communication. For example, Mesopotamian priests interpreted dreams as signs for political decisions, in Egyptian temples, people performed "dream vision" rituals to heal from illness, and in the Vedas of India, dreams were seen as steps of the soul towards higher truth. The research is based on the hermeneutic analysis of historical texts (the Epic of Gilgamesh, Egyptian papyri, and writings of Hippocrates), and shows that dreams are not only an individual psychological experience but also form the foundation of collective spirituality. As a result of the study, we can partially understand how significant dreams are in terms of their functionality in human life.

[1] Master's student in "Psychology of Religion"at the Azerbaijan Institute of Theology; Baku, Azerbaijan (corresponding author)
E-mail: hesen.isayev.01@mail.ru
https://orcid.org/0009-0003-3444-7417
[2] Doctor of Philosophy in Philosophy,
Teacher of the Azerbaijan Institute of Theology; Baku, Azerbaijan
E-mail: iradatagiyeva@ait.edu.az
https://orcid.org/0009-0002-0115-2017
**To cite this article:** Isayev, H., & Taghiyeva, I. [2025]. The experience of dreams in ancient cultures and religions. *History of Science journal*, *6*(2), pp.94-102.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i2.94-102

***Article history:***
*Received: 04.04.2025*
*Accepted: 03.06.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# QƏDİM MƏDƏNİYYƏTLƏRDƏ VƏ DİNLƏRDƏ YUXU TƏCRÜBƏSİ

**Həsən İsayev**[1]
**İradə Tağıyeva**[2]

**UOT:** 133.5:2(091)
**KBT:** 86.3(0):88.7:87.3
**HoS:** 64
**DOI:** 10.33864/2790-0037.2025.v6.i2.94-102

**Açar sözlər:**

Yuxu,
Röya,
Qədim mədəniyyətlər,
Yuxu şərhi,
İnkubasiya,
Ruh,
Ölüm

## ANNOTASİYA

Tarix boyu yuxular insanların diqqətini çəkmiş, onları həm qorxutmuş, həm də düşündürmüşdür. İbtidai insanlar yuxunu sadəcə bir gecə təcrübəsi yox, ruhun bədəni tərk edib başqa aləmləri gəzdiyi mistik bir hal kimi qəbul edirdilər. Bu inanclar zamanla dinlərin və mədəniyyətlərin formalaşmasına təsir göstərmiş, ruh, ölüm və həyat sonrası anlayışları ilə sıx əlaqələndirilmişdir.

Tədqiqat işimizin məqsədi insanlıq tarixində "yuxu" amilinin əhəmiyyətini anlamaq, insanların bu zaman ərzində yuxunu necə anladığını öyrənmək, qədim mədəniyyətlərin yuxuları insan həyatına necə tətbiq etdiyini tədqiq etməkdir.

Apardığımız tədqiqat, qədim mədəniyyətlər və dinlərdə yuxuların mədəni, dini və sosioloji funksiyalarını təhlil edir. Mesopotamiya, Misir, Hindistan, Yunan və Roma kimi sivilizasiyaların yuxuları necə şərh etdiyi, onlardan peyğəmbərlik, müalicə və ilahi ünsiyyət vasitəsi kimi necə istifadə etdiyi müqayisəli şəkildə araşdırılır. Məsələn, Mesopotamiya kahinləri yuxuları siyasi qərarlar üçün əlamət kimi şərh edir, Misir məbədlərində insanlar xəstəlikdən şəfa tapmaq üçün "yuxu görmə" ritualları keçirir, Hindistan Vedaları isə yuxuları ruhun ali həqiqətə doğru addımı kimi qiymətləndirirdi. Tədqiqat, tarixi mətnlərin (Gilqamış dastanı, Misir papirusları, Hipokrat yazıları) hermenevtik təhlili əsasında aparılıb və göstərir ki, yuxular təkcə fərdin psixoloji təcrübəsi deyil, həm də kollektiv mənəviyyatın əsasını təşkil edib. Araşdırmanın nəticəsi olaraq yuxunun insan həyatında funksionallıq baxımından nə dərəcə əhəmiyyətli olduğunu qismən anlaya bilərik.

[1] Azərbaycan İlahiyyat İnstitutunun "Din psixologiyası" ixtisası üzrə Magistr tələbəsi; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: hesen.isayev.01@mail.ru
https://orcid.org/0009-0003-3444-7417
[2] Fəlsəfə üzrə fəlsəfə doktoru,
Azərbaycan İlahiyyat İnstitutunun müəllimi; Bakı, Azərbaycan
E-mail: iradatagiyeva@ait.edu.az
https://orcid.org/0009-0002-0115-2017

**Məqaləyə istinad:** İsayev, H., & Tağıyeva, İ. [2025]. Qədim Mədəniyyətlərdə və Dinlərdə Yuxu Təcrübəsi. *History of Science jurnalı*, *6*(2), səh.94-102.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i2.94-102

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 04.04.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 05.05.2025*
*Çapa qəbul edilmişdir: 03.06.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ОПЫТ СНОВИДЕНИЙ В ДРЕВНИХ КУЛЬТУРАХ И РЕЛИГИЯХ

**Гасан Исаев**[1]
**Ирада Тагиева**[2]

**УДК:** 133.5:2(091)
**ББК:** 86.3(0):88.7:87.3
**HoS:** 64
**DOI:** 10.33864/2790-0037.2025.v6.i2.94-102

**Ключевые слова:**

Сон,
Сновидение,
Древние цивилизации,
Толкование снов,
Инкубация,
Душа,
Смерть

## АННОТАЦИЯ

На протяжении всей истории сны привлекали внимание людей, они одновременно пугали и заставляли задумываться. Первобытные люди воспринимали сон не просто как ночной опыт, но как мистическое состояние, в котором душа покидает тело и посещает другие миры. Эти верования со временем оказали влияние на формирование религий и культур, тесно связавшись с понятиями души, смерти и жизни после смерти.

Цель нашего исследования — понять значение феномена «сна» в истории человечества, изучить, как люди воспринимали сон в разные исторические периоды, и исследовать, как древние культуры использовали сны в жизни человека.

Проведенное нами исследование анализирует культурные, религиозные и социологические функции снов в древних культурах и религиях. В частности, сравнивается, как такие цивилизации, как Месопотамия, Египет, Индия, Греция и Рим, интерпретировали сны и использовали их для предсказаний, исцеления и божественного общения. Например, жрецы Месопотамии трактовали сны как знамения для политических решений, в храмах Египта проводились ритуалы «видения снов» для исцеления от болезней, а в Ведах Индии сны рассматривались как шаг души к высшей истине. Исследование проводится на основе герменевтического анализа исторических текстов (эпопея о Гильгамеше, египетские папирусы, работы Гиппократа) и показывает, что сны — это не только психологический опыт индивида, но и основа коллективного духовного опыта. В результате исследования можно частично понять, насколько важен сон в функциональном плане для человеческой жизни.

[1] Магистрант по специальности «Психология религии» Азербайджанского института теологии; Баку, Азербайджан (ответственный автор)
E-mail: hesen.isayev.01@mail.ru
https://orcid.org/0009-0003-3444-7417
[2] Доктор философии по философии,
Преподаватель Азербайджанского института теологии; Баку, Азербайджан
E-mail: iradatagiyeva@ait.edu.az
https://orcid.org/0009-0002-0115-2017
**Цитировать статью:** Исаев, Г. & Тагиева, И. [2025]. Опыт сновидений в древних культурах и религиях. *Журнал History of Science*, *6*(2), с.94-102.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i2.94-102

***История статьи:***
*Статья поступила в редакцию: 04.04.2025*
*Отправлена на доработку: 05.05.2025*
*Принята для печати: 03.06.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## *1.Giriş*

Yuxu insan varlığının ən qədim, ən maraqlı və bəlkə də ən az anlaşılan təcrübələrindən biridir. Hər bir insan həyatının təxminən üçdə birini yuxuda keçirir, amma bu halın mahiyyəti, mənası və məqsədi hələ də tam olaraq aydın deyil. Müasir dövrdə elm adamları yuxunu nevroloji və psixoloji prizmalardan araşdırsa da, qədim insanlar bu təcrübəni daha çox ruhani və ilahi bir fenomen kimi qiymətləndirirdilər. Onlar üçün yuxular sadəcə beyində yaranan təsadüfi görüntülər deyildi – bu, başqa aləmlərlə əlaqə, ilahi varlıqlarla ünsiyyət və bəzən gələcəyə dair xəbərdarlıqlar idi.

İbtidai insanlardan başlayaraq, bir çox qədim sivilizasiya – Mesopotamiya, Misir, Hindistan, Yunanıstan və başqaları – yuxulara dərin mənalar yükləmiş, onları gündəlik həyatın, qərarların, dini ayinlərin və müalicə üsullarının bir parçasına çevirmişdir. Məsələn, Sümer kahinləri yuxular vasitəsilə tanrılardan göstəriş aldıqlarını düşünür, Misir rahibləri məbədlərdə yataraq xəstələrə yuxular vasitəsilə şəfa arayır, Hind müdrikləri isə yuxunu ruhun daha yüksək mərtəbələrə keçidi kimi dəyərləndirirdilər. Qədim Yunan filosofları isə yuxunun həm bədən, həm də ruh vəziyyəti haqqında mesaj verdiyini irəli sürmüşdülər.

Bu mədəniyyətlər yuxunu həm fərdi həyat, həm də cəmiyyətin ümumi rifahı baxımından ciddi qəbul etmiş və onunla bağlı mürəkkəb simvolik sistemlər yaratmışlar. Hər yuxunun bir mənası vardı, hər simvolun bir açması, hər görüntünün isə bir yozumu. Bəzən yuxular vasitəsilə kralların gələcəyi müəyyən edilir, bəzən də xalqın təhlükədən qorunması üçün tədbirlər görülürdü.

Bu tədqiqatda yuxuların qədim dinlərdə və mədəniyyətlərdə necə şərh edildiyi, onlara necə yanaşıldığı və onların hansı məqsədlərlə istifadə olunduğu araşdırılır. Məqsədimiz yalnız tarixi faktları sadalamaq deyil, həm də bu qədim inancların insan təfəkküründə və dini dünyagörüşündə tutduğu yeri başa düşməkdir. Çünki bu inanc sistemləri bizə göstərir ki, insan qədimdən bəri yuxulara sadəcə gecə gördüyü bir hadisə kimi deyil, həyatla ölüm, ruhla bədən, Tanrı ilə insan arasında bir körpü kimi baxmışdır.

## *2.Tarixin ilk dövrlərində yuxu*

İlk dövrlərdə yaşayan insanlar da təbii olaraq yuxu görürdülər. Tarixin ən qədim mərhələlərindən bəri yuxuların məhz məlum dünya ilə naməlum dünya, insanla fövqəltəbii qüvvələr arasında bir əlaqə yaratdığına inanılırdı. İnsanlarda din fikrinin meydana gəlişini, ruh və ölüm anlayışlarına dair ilk münazirələri yuxu təəssüratlarının nəticəsi kimi görmək olar. İbtidai insanlarla bağlı antropoloji tədqiqatlar göstərir ki, o dövr insanları yuxu ilə gerçək həyat arasında aydın sərhəd çəkə bilmirdi. Araşdırmalara görə, iki bioloji hadisə ibtidai insanı daima narahat edirdi:

1. Ölü bədənlə diri bədən arasındakı fərq,
2. Yuxularda görülən insan siluetləri.

O zamanlar insanlar belə düşünürdülər: Hər insanın bir bədəni, bir ruhu və həmçinin bədənin bir "əkizi" olmalıdır. Bədənin əkizi yuxuda bir xəyal kimi görünür. Yuxu, ruhun bədəni müvəqqəti tərk etməsidir. Ruh bədəni tərk etdiyi müddətdə haraları gəzirsə, nələr edirsə, insan bunları yuxusunda görür.

İbtidai mədəniyyətlərin çoxunda yuxu zamanı ruhun bədəndən ayrılıb gəzdiyinə inanılırdı və buna görə də yuxuda olan şəxsə heç toxunulmazdı.

Keçmişdə bəzi din xadimləri animizmi (ruhlara inancı) bütün ibtidai dinlərin əsası hesab edirdi. Şəxsiyyətin bir əksi olan ruh anlayışı, insanı həyəcanlandıran yuxulardan təkamül etmişdir. Ölümün insanda dəhşət yaratması şübhəsizdir: ölənin bədənindəki dəyişiklik, hərəkətsizlik və səssizlik yaşayanları sarsıtmışdır. Ölənin yaxınlarının yuxularında görünməsi isə onun "forma dəyişsə də, hələ də yaşadığı" fikrinə inam yaratmışdır. Qədim inanclara əsasən insanın bir hissəsi, yəni ruhu ölümdən sonra da yaşamağa davam edir.

Bu cür inanclara görə, insanın ruhu ilə kölgəsi arasında sıx əlaqə vardır. Əfsanə və mifologiyada tez-tez kölgəsini itirən insanın ruhunu da itirdiyi motivinə rast gəlinir.

Qədim bir ənənəyə görə, gündüz suallar günəşə atılarsa, gecə ayın cavabı dinlənir. Şimali Amerika yerli əhalisi yuxu dualarını qəbilə ənənəsi kimi həyata keçirir və yuxunun mənası aydınlaşana qədər bunu təkrarlayırdı [5, s.5-6].

Yuxular bəzi mədəniyyətlərdə ölmüş şəxslərdən, yuxuda olanlardan və ya insanın özündən gələn mesajlar kimi başa düşülür. Məsələn, Zuni və Quiche Maya ənənələri yuxuları maraqlı şəkildə atalardan, ruhlardan və ya ilahilərdən gələn bir görüntü kimi şərh edir [4, s.39].

Assuriyalılar və Misirlilər yuxu şərhinə dair digər millətlərdən daha inkişaf etmiş səviyyədə idilər. Qədim Yunan və Romalılar da yuxu şərhində Misirlilərdən təsirlənərək əsərlər yazmışlar [1, s.23].

Qədim mədəniyyətlərdə yuxu müalicə metodu kimi də bilinirdi. Buddistlərdə, hindularda, müalicə metodu ilə yanaşı arayış içində olan bir şəxsin cavab tapmasında, yolunun aydınlanmasında rəhbər kimi yuxu istifadə olunurdu. Yuxunun insana rəhbərlik etməsi məsələsi özünü islam dinində istixarə kimi göstərir.

Yuxular gələcəklə bağlı əlamətlər kimi də istifadə edilə bilər. Bunun ən təmiz nümunəsi, qədim dövrdəki inkubasiya üsuluna bənzəyən *istixarə* ənənəsində görünür: şəxs dua etdikdən sonra müqəddəs və ya təqdis edilmiş bir yerdə uzanır və "xeyirli olanı axtarır" (çünki ərəbcədəki "istixarə" sözünün tam mənası budur); şəxs bu yolla bir sualın cavabını, bir tərəddüdün həllini öyrənməyi ümid edir [9, s.21].

Yuxuların müalicə məqsədi ilə istifadəsi olduqca tez-tez rast gəlinən bir tətbiqdir. Qədim sivilizasiyalarda xəstə və ya pis vəziyyətdə olan şəxs, *inkubasiya* (inkubasiya/inkubatio) adlanan çox geniş yayılmış bir üsula uyğun olaraq, diqqətli hazırlıqdan sonra məbəddə yataraq, gördüyü yuxunu şərh edən bir yuxu görmək üçün və ya üzləşdiyi ümumi bir problemi həll etmək məqsədilə tanrılardan kömək və rəhbərlik diləyirdi. Ertəsi gün gördüyü yuxunu kahinlərə şərh etdirərək hansı mesajın gəldiyini anlamağa çalışırdı. İnkubasiya ilə bərabər yuxuların yuxularla şərh edilməsi də çox geniş yayılmış bir ritual kimi qarşımıza çıxır. Bir kahin və ya başqa bir şəxs yuxu görən şəxs adından yatır və onun şərh edilməsini istədiyi yuxunu açıqlayan bir yuxu görə bilərdi [2, s.111].

### *3.Mesopotamiyada yuxu anlayışı*

Mesopotamiya deyərkən ağıla ilk olaraq şumerlərin, babilin və assurların mədəniyyətləri gəlir.

Şumerlər tarix səhnəsində olduqları müddət ərzində yuxulara böyük əhəmiyyət vermişdilər. Bu əhəmiyyət onların yazılı mənbələrində də diqqət çəkir. Şumer hökmdarı Qudea məşhur yazıtlarında özünü məbəd tikməyə həvəsləndirən çoxlu yuxular gördüyünü ifadə etmişdir.

Qədim Mesopotamiya insanı üçün yuxular çoxfunksiyalı idi. Çünki yuxular kəhanətlər daşıyır və gələcək haqqında məlumat verirdi. Müasir dövrdə psixologiya elmi də yuxular haqqında bu fikrə bənzər yanaşma sərgiləyir. Məsələn, Yunq yuxuların gələcəklə bağlı təxminlərdən daha çox insanların real həyatda yaşayacağı hadisələrin dəqiq əlaməti olduğunu vurğulayır. Qədim Mesopotamiya Tarixinə nəzər saldıqda yuxuların bu tərəfi Şumerlərin möhtəşəm əsəri Qılqamış Dastanında konkret şəkildə öz əksini tapır [8, s.82].

Bəzi yuxuların dini mənada köməkçi rol oynadığı qəbul edilmişdir. Çünki yuxuda vəhy alınması xüsusiyyəti mövcuddur. Məsələn, Qədim Suriyada kralların və din xadimlərinin gördüyü pis yuxular və onları izləyən hadisələrlə bağlı yuxu kitabları tapılmışdır. E.ə. 5000-ci ildə Babildə və Qədim Suriyada bir yuxu ənənəsinə görə, kiminsə yuxuda bir yerdən başqa yerə uçduğunu görməsi, onun mal-mülkünü itirəcəyi kimi şərh edilirdi.

Babil və Assur mədəniyyətləri yuxular mövzusunda bir qədər fərqli inanclara malik idilər. Onlara görə, Babil yuxu tanrıçası Mamu, bütün pis təsirli yuxuların təsirlərindən qurtulmaq üçün ən etibarlı vasitə idi. Ninovada E.ə. 669-626-cı illərdə yaşamış Assur imperatoru Asurbanipalın kitabxanasında yuxularla bağlı daş üzərində həkk olunmuş əsərlər tapılmışdır. Bu əsərlərdə təkcə yuxuların şərhləri deyil, həm də pis yuxulardan necə qaçınmaq, yaxşı yuxular görmək üsulları haqqında məlumatlar verilir. Bundan əlavə, bu sənədlər yuxularla cinsəllik arasındakı əlaqəni ilk dəfə ortaya qoyan cəmiyyətlərin Assur və Babil mədəniyyətləri olduğunu və mənfi yuxuların təsirlərindən qorunmaq üçün qurban mərasimləri təşkil etdiklərini göstərir. Asurbanipalın kitabxanasında yuxu ilə bağlı müxtəlif kitablar aşkar edilmişdir, hansı özlərində yuxuların şərhi ilə bağlı, yuxunun mahiyyəti ilə bağlı məlumatları ehtiva edirlər [5, s.9].

### *4.Qədim Misirdə yuxu təcrübəsi*

Arxeoloji tapıntıları, yazıları və təqvimi ilə dərin kökləri olan bir sivilizasiya kimi qəbul edilən Qədim Misirdə insanlar həyat haqqında anlayışlara birbaşa təcrübə yolu ilə çatır və hadisələri olduğu kimi qəbul edirdilər. Onlara görə yuxular, oyanıq həyatdan fərqli məzmun daşıyırdı. Bu səbəblə onların təcrübələri də fərqli bir dünyaya aid olmalı idi. Yuxunun özündən başqa heç bir əlavə sübuta ehtiyac yox idi. Yuxular, yuxu görən şəxsin oyanıq təcrübələrindən kənar məlumatlar daşıdıqları üçün, daha üstün varlıqların və ya tanrıların özləri ilə dialoq kimi qiymətləndirilirdi. Ötürülən məlumatlar xoşagəlməz olduqda isə, yuxunu görən şəxsin pis təsirlər altında olduğu düşünülürdü.

İnsanlara yaxşı təsir göstərən və onları qoruyan yuxuların Misir mifalogiyasına görə Yuxu Tanrısı Bes tərəfindən göndərildiyinə inanılırdı.

Qədim Misirlilər yaxşı yuxular görmək üçün paytaxt Memfisdə yerləşən İmhotep və İsis məbədlərində dua edir, oruç tutur və xəstələrini sağaltmaq üçün xüsusi ayinlər keçirirdilər [5, s.7].

Qədim Misirə aid əfsanə və rəvayətlərdə kralların və şahzadələrin "tarix boyu" baş verəcək ilahi mənşəli yuxuları nəql edilir. Buna görə, bu kralların və şahzadələrin gələcəkdə hökmdar olacaqları barədə məlumatlar əvvəlcədən tanrıların lütfü ilə yuxularında bildirilirdi. Bu cür yuxularda açıq şəkildə krallıqların müjdələndiyi görünür. Bəzən eyni rəvayətlərdə kralların edəcəyi müharibədən qalib çıxacaqları barədə yuxularında müjdələr aldıqları da nəql edilir. Misir hökmdarları həmişə yaxşı yuxular görmürdülər. Məsələn, hakimiyyətləri dövründə işlərin pis getdiyi, öz heykəllərinin və ya məbədlərdəki bəzi təcrübələrin tanrının xoşuna gəlmədiyi yenə də yuxular vasitəsilə bildirilirdi.

Qədim Misir mənbələrində cəmiyyətin seçkin təbəqəsinin yuxuları yanında adi vətəndaşların və fərdlərin yuxularından da bəhs edilir. Belə yuxu görən şəxslər, bu yuxuların şərhində söz oyunlarına, simvollara və ya ziddiyyətlərə əsaslanan açar anlayışlardan istifadə edirdilər. Qədim Misirin son dövrlərində meydana çıxan başqa bir təcrübə isə insanların maraqlarını ödəmək üçün məbədlərdə –xüsusilə Abidos və Memfisdə– yuxulardan ilhamlanaraq gələcəkdə şəxsi həyatlarında baş verəcək dəyişiklikləri öyrənmək məqsədilə yuxu şərhi xidmətlərinin təqdim edilməsi idi [10, s.127].

Misirlilər yuxuları, Tanrıdan gələn mesaj olaraq qəbul etmiş və buna uyğun açıqlamalar gətirmişlər. Onlara görə yuxularda Tanrıların üç rolu vardır və bunlar aşağıdakılardır:

- Günah işləyənlərin tövbə etmələrini istəmək
- Yuxunu görən şəxsi gələcək təhlükələrə qarşı xəbərdar etmək
- Yuxu görən şəxsin suallarına cavab vermək [1, s.23; 6, s.117].

### *5.Qədim Hind mədəniyyətində yuxu*

Hinduizmin ən qədim müqəddəs mətnlərindən və rituallarından müasir təlim və təcrübələrinə qədər oyaqlıq halı, yuxu görmək və həqiqət arasındakı əlaqə haqqında deyəcəyi çox şey var. Yəni bizim oyaqlıq vəziyyəti adlandırdığımız şey, əslində ölümlə

oyanılan həqiqi bir yuxu növüdür. Oyaqlıq halı ilə yuxu təcrübəsi "bir-birini tamamlayan və həqiqət dəyəri eyni olan iki fərqli vəziyyət"dir. Yuxular daxil olunan mərtəbənin bir əlaməti kimi qəbul edilir, çünki Hinduizm üçün yuxular varlıq mərtəbələrinin ən yüksəyində yerləşən Brahman mərtəbəsinə çatmaqda addımlardır. Hindu ənənəsi göstərir ki, insan yuxuda və oxşar hallarda reallığın başqa tərəflərini dərk edə bilər.

Yuxuya ilk Hind istinadı Rig Vedada qorxulu bir yuxunun təsviri ilə verilir. Lakin yuxuda qorxulan şeyin yuxu təcrübəsinin özü, yoxsa yuxunun məzmunu olduğu mövzusu qeyri-müəyyəndir. Ümumiyyətlə, Rig Veda yuxu və yuxulardan mənfi mənada bəhs edir. Rig Vedadakı müvafiq dualar və rituallar insanı təkcə pis yuxulardan qorumaqla kifayətlənmir, həm də yuxuları düşmənlərə yönləndirə bilir. Yuxuların şeytanın xarici silahı kimi qəbul edilməsi ilə yanaşı, onların məzmununa diqqət yetirilmir. Vedaya əsasən Yuxuların xəbər və ya məlumat mənbəyi kimi heç bir dəyəri yoxdur; onlar əxlaqi həqiqətə malik ola bilərlər, lakin epistemoloji həqiqətdən məhrumdurlar [2, s.58-59].

Hindlilər üçün gündəlik yuxulardan daha çox simvolik yuxular əhəmiyyət kəsb etmişdir. Hindlilərə görə mistik və simvolik yuxularda müəyyən ilahi mesajlar gizlənir. Hindlilərin Atharvaveda (e.ə. 1000) kitabı müasir psixoloji tədqiqatçılarına qədər yuxularla bağlı mənbə olmuşdur. Atharvaveda'da yuxu hadisəsi *"yarıoyaq vəziyyət"* (İnsan hələ tam yuxuya getməyib, amma reallıqla yuxu arasında qalır, təsəvvürlər və xəyallar başlayır), *"yuxusuz yuxu vəziyyəti"* (Bu mərhələdə insan adi yuxular görür və zehnində müxtəlif obrazlar canlanır.), *"yuxu vəziyyəti"* (Burada insan heç bir yuxu görmür, amma tam sakitlik və dinc bir hal içindədir.), *"üstün yuxu vəziyyəti"* (Bu, adi yuxudan fərqli olaraq dərin daxili sakitlik və ali şüur halıdır) kimi dörd mərhələdən ibarətdir [4, s.40.[

***6.Qədim Yunan mədəniyyətində yuxu***

Qədim Yunan'da Stoacı filosoflar yuxuları; ruhdan, digər ruhlardan və ya tanrıların özlərindən gələn görüntülər kimi qəbul etmişdilər. Bu ənənəni izləyən insanlar bəzən müalicəvi və ya gələcəyi göstərən yuxular görmək məqsədilə müqəddəs məbədlərdə inzivaya çəkilmişlər. Həmçinin Hipokrat, yuxuların ortaya çıxmamış fiziki xəstəliklərin göstəricisi olduğunu irəli sürmüşdür.

Qədim Yunan, Roma və Yəhudi mədəniyyətləri Asur və Misirlilərin yuxuları yozma üsullarını bilir və tətbiq edirdilər. Bu regionda yaranan ilk fəlsəfə və din məktəblərində şagirdlərə ruhun qidalanmaq üçün yuxu zamanı bədəndən ayrıldığı öyrədilirdi. Qədim Yunanlılar, eynilə Misirlilər kimi, yuxuları üçün məbədlər tikmiş, fiziki xəstəliklərin müalicəsində və dünyadan ayrılmış ruhlarla əlaqə qurmaq üçün yuxulardan istifadə etmişlər. Qədim Yunanlılara görə yuxular üç növə bölünürdü:

- Tanrıların və ya ruhların özlərini insanlara göstərdiyi yuxular;
- Simvolik üslubda görünən yuxular;
- Gələcəkdən xəbər verən yuxular [5, s.9-10].

**Qədim Dövrdə** Yuxu Tanrısı Hypnos və Ölüm Tanrısı Thanatos əkiz qardaşlar idi. Bu iki qardaş Zülmət Tanrısı Erebos ilə Gecə Tanrıçası Nyksin oğullarıdır. Hypnos bəzi təsvirlərdə kreslosunda uzanmış halda göstərilir, ətrafında yuxuların yaradıcıları olan oğulları Phantasos və Morpheus durur. Onun evinin qarşısında laləgülü çiçəkləri və digər sakitləşdirici otlar bitir. Hypnos və oğulları səssizliyin hökmran olduğu, yeganə eşidilən səsin Lethe Çayının şırıltısı olduğu bir məkanda yaşayır. Lethe Çayının adı "letarji" (yuşqunluq, halsızlıq) sözünün mənbəyini təşkil edir. Hypnosun oğlu Phantasosun adı isə "fantaziya" (xəyal məhsulu) və "phantom" (xəyalət) sözlərinin kökünə çevrilmişdir. Digər oğlu Morpheus isə insanların yuxularından məsuldur. Morpheus, bəzi mənbələrə görə Nyksin, bəzilərinə görə isə Zevsin qızı olan, rahatlıq və istirahətdən məsul Tanrıça Pasithea ilə Yuxu Tanrısı Hypnosun oğludur.

Qədim dövrdə **yuxu** şərhinin əsasında insanın psixi vəziyyəti deyil, Tanrı dayanırdı. Yuxularında Tanrılarla əlaqə qura bildiyinə inanan insanlar, onlarla ünsiyyətə keçmək üçün yuxuları çağırmağa başlamışdılar. Bununla da yuxu təcrübəsini dini bir ayinə çevirdilər. Xüsusilə Qədim Yunanıstanda geniş kütlələr tərəfindən qəbul edilən bu inanc, yuxunun müqəddəsləşdirilməsində böyük rol oynamışdır. Qədim Yunanıstanda "yuxuya yatmaq" anlayışı (inkubasiya), mühüm bir konsepti təmsil edir və Tanrının sözünü (kəlamını) gözləmək mənasında işlənirdi. Yuxuya yatmaq üçün Tanrının insanlara göründüyü yerlər olan məbədlər seçilirdi. İnsanlar məbədlərdə niyyət edib yatır və niyyətlərinə uyğun yuxunu görməyi gözləyirdilər. Bəzən günlərlə davam edən bu gözləmə həyatı dini bir mərasimə bənzəyirdi. İnsanların axtardıqları cavab yuxularda gizlənirdi və bu cavab birbaşa Tanrının cavabı idi. Tanrılar yuxularda insanları öz dünyalarında qəbul edir, onları öz varlıqlarına dəvət edirdilər. İnsanı Tanrıların səsini eşitməyə layiq edən şey isə onun ruhu idi. Yunan dilində "nəfəs" mənasında işlənən ruh (psixe), Tanrı təsəvvüründən yaranmışdı. Yarımilahi təbiətə malik olan insan yuxuda, Tanrının təsəvvüründən yaranan ruhunun transsendentliyini kəşf edir. Bu transendental təcrübə insanı bir mənada Tanrıların dərgahına çatdırır. Beləliklə, yuxular qədim Yunanıstanda insanın Tanrılarla ortaq olan varlıq (ontoloji) vəziyyətini kəşf etməsində əhəmiyyətli rol oynayırdı.

Qədim Yunanıstanda bir insan xəstə olsaydı (bu adətən psixoloji xəstəliklərə aid idi və müasir dövrdə psixoterapiyaya müraciət prosesi kimi qiymətləndirilə bilər) və bu xəstəlikdən qurtulmaq istəyirdisə, əvvəlcə kahinlərə müraciət etməli idi. Çünki xəstənin yuxusunda Müalicə Tanrısından dəvət alması və müalicə ola bilməsi üçün Asklepiyə[13] getməsi məcburi idi. Kahinlər bu məsələdə xəstəyə kömək etmək məqsədilə ona bir sıra rituallar həyata keçirtdirirdilər. Bunlara müqəddəs yerlərin ziyarəti, qurban kəsmək, bitki dərmanları ilə təmizlik, dua və meditasiya kimi əməllər daxil idi. "Dəvət" yuxularında Tanrı bəzən məbədlərdakı heykəllər, bəzən də ilan şəklində görünürdü. Lakin Tanrı hansı formada görünsə də, bu yuxular kahinlər tərəfindən şərh edilir və əgər həqiqət olduğu qəbul edilərsə, şəxs məbədə yalnız bu şərtlə qəbul edilirdi [8, s.96-97].

### *7.Nəticə*

Qədim dövrlərdən bu günə qədər insanlar yuxuları sadəcə gecə görüb unudulan təsadüfi görüntülər kimi deyil, müəyyən mənalar daşıyan, bəzən xəbərdarlıq edən, bəzən də yol göstərən bir hadisə kimi dəyərləndiriblər. Tarixin ən erkən mərhələlərindən etibarən yuxuların ruhun səyahəti, tanrılarla ünsiyyət və ya keçmişdən gələn səs olduğuna dair inanclar formalaşıb. Bu inancların arxasında sadəcə qorxu və ya maraq yox, həm də insanın öz varlığı, ölüm və həyat haqqında suallara cavab axtarışı dayanırdı.

Maraqlıdır ki, dünyanın fərqli coğrafiyalarında yaranan mədəniyyətlər — məsələn, Mesopotamiya, Misir, Hindistan və Yunanıstan — bir-birindən uzaq olsalar da, yuxulara verdikləri dəyər baxımından oxşar yanaşmalar sərgiləmişdilər. Hər biri yuxuları ciddiyə alır, onlara dini, mistik və hətta siyasi anlamlar yükləyirdi. Bəziləri yuxuları şərh edən kitablar yazır, bəziləri isə məbədlərdə yuxu görmək üçün xüsusi ayinlər keçirirdilər.

Bu qədər fərqli düşüncə sistemində yuxunun ortaq bir inanc obyekti kimi çıxış etməsi onu adi bir psixoloji haldan çıxarıb mədəni və mənəvi fenomenə çevirib. Yuxular, əslində, insanın öz daxilinə baxmaq, qorxuları və ümidləri ilə üzləşmək üçün min illər boyu istifadə etdiyi bir “ayna” olub. Tarix dəyişsə də, insanın yuxularla qurduğu bu gizli dialoq hələ də davam edir — sadəcə dilləri dəyişib.

### *8.REFERENCES*

1. Akot, B. (2005). *The psychological and religious foundations of dream experience* (Master’s thesis, Ankara University, Institute of Social Sciences, Department of Philosophy and Religious Studies, Division of Psychology of Religion), 141 p. (in Turkish)

**2.** Bedir, F. N. (2022). *Dream: Belief and behavior*. Eskiyeni Publishing, 373 p. (in Turkish)
**3.** Chappa, K., & Joshi, T. (2024). Dream interpretation: Ancient cultures and scientific research. *The International Journal of Indian Psychology, 12*(2), 4072 p. (in English)
**4.** Celik, R. B. (2019). *The relationship between dream themes and religiosity* (Unpublished master's thesis, Suleyman Demirel University, Institute of Social Sciences, Department of Philosophy and Religious Studies), Isparta, 121 p. (in Turkish)
**5.** Evginer, N. (2010). *Dream as a psychological and religious phenomenon* (Unpublished master's thesis, Selcuk University, Institute of Social Sciences, Department of Philosophy and Religious Studies, Division of Psychology of Religion), Konya, 145 p. (in Turkish)
**6.** Gunay, U. (2011). *The tradition of minstrelsy poetry and the motif of dream in Turkey* (6th ed.). Akcag Publishing, 379 p. (in Turkish)
**7.** Hughes, J. D. (2000). Dream interpretation in ancient civilizations. *Dreaming, 10*(1), 7–18. https://doi.org/10.1023/A:1009447606158 (in English)
**8.** Ozguven, E. (2019). *The dream as a means of the manifestation of the sacred* (Doctoral dissertation, Dokuz Eylul University, Institute of Social Sciences, Department of Philosophy and Religious Studies), Izmir, 150 p. (in Turkish)
**9.** Schimmel, A. (2023). *The dreams of the caliph: Dreams and their interpretation in Islamic culture* (T. Erkmen, Trans.). Sufi Kitap Publishing, 527 p. (in Turkish)
**10.** Taspinar, I. (2014). Dreams and their interpretation in religions. *Kopru Journal, 128* (Autumn), 11 p. (in Turkish)
**11.** Yucesoy, S. (2001). *Wisdom in sleep: Dreams*. Ruh ve Madde Publishing, 304 p. (in Turkish)
**12.** Zaimoglu, E. (2011). Dream: The ladder ascending to the heavens. *East-West Journal of Thought, 56*, 317 p. (in Turkish)

## ƏDƏBİYYAT

**1.** Akot, B. (2005). *Rüya tecrübesinin psikolojik ve dini temelleri* (Yüksek lisans tezi, Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Felsefe ve Din Bilimleri Bölümü, Din Psikolojisi Anabilim Dalı), 141 s.
**2.** Bedir, F. N. (2022). *Rüya: İnanç ve davranış*. Eskiyeni Yayınları, 373 s.
**3.** Chappa, K., & Joshi, T. (2024). Dream interpretation: Ancient cultures and scientific research. *The International Journal of Indian Psychology*, 12(2), April–June, 4072 p.
**4.** Çelik, R. B. (2019). *Rüya temaları - dindarlık ilişkisi* (Yayımlanmamış yüksek lisans tezi, Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü, Felsefe ve Din Bilimleri Anabilim Dalı), Isparta, 121 s.
**5.** Evginer, N. (2010). *Psikolojik ve dini bir fenomen olarak rüya* (Yayımlanmamış yüksek lisans tezi, Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü, Felsefe ve Din Bilimleri Anabilim Dalı, Din Psikolojisi Bilim Dalı), Konya, 145 s.
**6.** Günay, U. (2011). *Türkiye'de Âşık Tarzı Şiir Geleneği ve Rüya Motifi* (6. baskı). Akçağ Yayınları, 379 s.
**7.** Hughes, J. D. (2000). Dream interpretation in ancient civilizations. *Dreaming*, 10(1), 7–18, 13 p. https://doi.org/10.1023/A:1009447606158
**8.** Özgüven, E. (2019). *Kutsalın kendisini ifşa etme aracı olarak "rüya"* (Doktora tezi, Dokuz Eylül Üniversitesi Sosyal Bilimler Enstitüsü, Felsefe ve Din Bilimleri Anabilim Dalı), İzmir, 150 s.
**9.** Schimmel, A. (2023). *Halifenin rüyaları: İslam kültüründe rüya ve tabiri* (T. Erkmen, Çev.). Sufi Kitap Yayınları, İstanbul, 527 s.
**10.** Taşpınar, İ. (2014). Dinlerde rüya ve yorumu. *Köprü Dergisi*, 128 (Güz), 11 s.
**11.** Yücesoy, S. (2001). *Uykudaki Bilgelik Rüyalar*. Ruh ve Madde Yayınları, 304 s.
**12.** Zaimoğlu, E. (2011). Rüya: Göğe yükselen merdiven. *Doğu Batı Düşünce Dergisi*, 56, 317 s.